

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 63 (21.724)

5 aprel 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiçi qəbul edib.

Səfir Neboyşa Rodiç Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü ildə təltif edildiyi Serbiyanın Ali ordenini dövlətimizin başçısına təqdim edib.

Səfir dövlətimizin başçısına Ali ordenə layiq görülməsi münasibətilə Serbiyanın Prezidenti Tomislav Nikoliçin təbriklərini çatdırıb.

Prezident İlham Əliyev Ali ordenə layiq görülməsini yüksək qiymətləndirib və təbriklərə görə minnətdarlığını Serbiya Prezidentinə çatdırmağı xahiş edib. Dövlətimizin başçısı İlham Əliyev Prezident Tomislav Nikoliçin Azərbaycana səfəri və onunla Bakıda keçirdiyi görüşü məmnunluqla xatırladıb.

Səfir Neboyşa Rodiç Prezident İlham Əliyevin Serbiyaya səfərinin ölkəsində səbirsizliklə gözlənildiyini bildirib.



## Toxumçuluq təsərrüfatına yeni kənd təsərrüfatı texnikaları və avadanlıqları təqdim olunmuşdur





Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında imzalanmış texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində ayrılan qrand hesabına aprelin 4-də "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Açıq Səhmdar Cəmiyyətinin toxumçuluq təsərrüfatına yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası avadanlıqları təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua bu münasibətlə keçirilən tədbirdə iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikasında əhalinin 70 faizi kəndlərdə yaşayır və kənd təsərrüfatı ilə məşğul olur. Bu səbəbdən də muxtar respublikada kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Hər il müasir meliorasiya-irriqasiya sistemləri qurulur, bu hesaba yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Kənd təsərrüfatı texnikaları torpaq mülkiyyətçilərinə verilir, kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin fəaliyyəti dəstəklənir. Aydın məsələdir ki, toxumçuluğu inkişaf etdirmədən aqrar sahədə məhsuldarlığı artırmaq mümkün deyil. Ona görə də toxumçuluq təsərrüfatlarının inkişafı diqqətdə saxlanır və əkin sahələrinin becərilməsində yeni innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Çin Xalq Respublikası tərəfindən qrand hesabına muxtar respublikanın toxumçuluq təsərrüfatına yeni texnikaların və avadanlıqların verilməsi bu sahənin inkişafı üçün əhəmiyyətlidir.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasında əlaqələr müxtəlif istiqamətlərdə inkişaf və davam etdirilir. Təhsil, rabitə və yeni texnologiyaların tətbiqi sahəsində həyata keçirilən qarşılıqlı layihələr məmnunluq doğurur. Bu əlaqələrin davamı olaraq Çin Xalq Respublikasından gətirilən 33 adda 80 kənd təsərrüfatı texnikası, eləcə də toxum laboratoriyası iki min hektar sahədə yeni metodlarla əkin və becərmə işlərinin aparılmasına öz töhfəsini verəcəkdir.

Ali Məclisin Sədri Çin Xalq Respublikası ilə əlaqələrin inkişafından məmnunluğunu bildirmiş, Naxçıvan Muxtar Respublikasında toxumçuluq təsərrüfatının inkişafına göstərdiyi dəstəyə görə Çin Xalq Respublikasının hökumətinə və əhalisinə dərin minnətdarlıq etmişdir. Həmçinin Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasında əlaqələrin inkişafında Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin, şəxsən cənab səfirin əvəzsiz rolunu qeyd etmiş, etibarlı tərəfdaşlığa və əlaqələrin inkişafında xüsusi roluna görə səfirə və səfirliyin əməkdaşlarına da təşəkkürünü bildirmişdir.

Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vətəni Naxçıvanda olmaqdan və muxtar respublika ilə əlaqələrin inkişafından məmnunluğunu bildirmişdir. Qeyd olunmuşdur ki, bu gün Çin Xalq Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələr inkişaf etdirilir. Toxumçuluq təsərrüfatının inkişafı üçün yeni texnika və avadanlıqların təqdim olunması da bir daha təsdiq edir ki, Çin Xalq Respublikası əlaqələrin genişləndirilməsində maraqlıdır. Səfir Çin Xalq Respublikasından gətirilən yeni texnika və avadanlıqların təqdimatına görə minnətdarlıq etmişdir.

Sonra toxumçuluq təsərrüfatı üçün gətirilmiş maşın, aqreqat və avadanlıqların təhvil-təslim aktı imzalanmışdır.

Ali Məclisin Sədri texnika və avadanlıqların qurulmasında iştirak edən və texniki heyətə təlim keçən çinli mütəxəssislərə hədiyyələr təqdim etmişdir.

Yeni alınan texnikalara və toxumçuluq laboratoriyası avadanlıqlarına baxış zamanı bildirilmişdir ki, Çin istehsalı olan 5 kombayn, 5 traktor, hər birinin tutumu 10 ton olan 4 yük maşını, 5 toxumsəpən, 5 filtr təmizləyici, avtobus, hidravlik ekskavator, yanacaq tankeri, toxumörtən, diskli kotan və dırmıqlar, 5 gübrəsəpən, 5 toxumtəmizləyən, 2 elevator, 80 tonluq elektron tərəzi, eləcə də digər maşın və avadanlıqlar yüksək iş imkanlarına malikdir. Yeni alınan elektro-termostatik inkubator, isitmə və qurutma sobası, mikroskop və digər avadanlıqlar hesabına toxumçuluq laboratoriyasında yüksək məhsuldarlığa malik, xəstəliyə, ziyanvericilərə və yerli iqlim şəraitinə dözümlü toxum sortları yetişdiriləcək, toxumların genofonduna və seleksiyasına nəzarət olunacaqdır.

Yeni alınan texnika və avadanlıqların ehtiyat hissələri də toxumçuluq təsərrüfatının anbarına təhvil verilmişdir.

Ali Məclisin Sədri əlaqələrin bundan sonra da müxtəlif sahələrdə inkişaf etdiriləcəyinə əminliyini bildirmiş, həyata keçirilən birgə layihələrin əhəmiyyətini vurğulamış və investisiya imkanlarını diqqətə çatdırmışdır.

Səfir Naxçıvanda istehsal olunan məhsulların öz keyfiyyəti ilə seçildiyini və bu məhsulların Çin bazarlarına çıxarılmasında maraqlı olduqlarını bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**





## Naxçıvanda multikultural dəyərlərə göstərilən diqqət İsveçrədə keçirilən konfransda yüksək qiymətləndirilib

***Martın 28-də İsveçrənin Bern şəhərindəki Dinlər Evində Azərbaycanın İsveçrədəki səfirliyinin təşəbbüsü və "Dinlər Evi - Mədəniyyətlərin Dialoqu" qurumunun təşkilatçılığı ilə "Multikulturalizm və mədəniyyətlərarası dialoq" mövzusunda konfrans keçirilib.***






Tədbiri Azərbaycanın İsveçrədəki səfiri Əkrəm Zeynallı açaraq ölkəmizin əsrlərboyu müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu bir məkan olduğunu, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanındığını bildirib. Azərbaycanda multikulturalizmin artıq alternativi olmayan həyat tərzinə çevrildiyini qeyd edən səfir dövlət başçısının müvafiq sərəncamları ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan olunduğunu diqqətə çatdırıb.

Azərbaycan dövlətinin müxtəlif dini icmalara münasibətdə həyata keçirdiyi siyasət barədə ətraflı məlumat verən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bu istiqamətdə tarixən formalaşmış dəyərlərdən söz açıb, müxtəlif dini icmaların birgəyaşayış nümunəsindən danışıb.

"Dinlər Evi - Mədəniyyətlərin Dialoqu" təşkilatının rəhbəri Qerda Hauk İsveçrədə bu istiqamətdə mövcud olan qanunvericilik aktları barədə məlumat verib.

Sonra konfrans diskussiya şəraitində davam etdirilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Rəşad İlyasov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, Qafqaz Müsəlmanları İdarəsinin aparat rəhbəri Simran Həsənov və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin rəisi Vüqar Babayev ölkəmizdə bu sahədə görülən işlər barədə danışıblar. Konfransda Naxçıvanda multikultural dəyərlərə göstərilən diqqət, məzhəb ayrı-seçkiliyinə yol verilməməsi yüksək qiymətləndirilib. Vurğulanıb ki, müasir dövrdə müxtəlif məzhəblərə məxsus insanların eyni yerdə ibadət etməsi çox nadir görülən hadisələrdəndir. Vüqar Babayev əhalisinin çoxunun müsəlmanlar olduğu Naxçıvanda digər dinlərin nümayəndələrinə də yüksək diqqət və qayğı göstərildiyini, Ordubad şəhərindəki məbədin bərpa olunmasını multikultural dəyərlərə verilən əhəmiyyətin bir nümunəsi olduğunu bildirib. Naxçıvanda yaşayan müxtəlif millətlərin nümayəndələrinin yüksək dövlət vəzifələrində təmsil olunduğunu, onların fəxri adlarla təltif edildiyini bildirən Vüqar Babayev muxtar respublikada fəaliyyət göstərən Multikulturalizm komissiyaları barədə də ətraflı məlumat verib.

Bern şəhəri ilə tanışlıq zamanı İsveçrədə peşə təhsilinə xüsusi önəm verildiyi diqqətə çatdırılıb. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarənin rəisi Vüqar Babayev Naxçıvanda peşə təhsilinin özünəməxsus modelinin yaradıldığını bildirib, nəticədə, peşə təhsilinə marağın artdığını, hətta sağlamlıq imkanları məhdud insanların da peşə kurslarına cəlb olunduğunu diqqətə çatdırıb. İsveçrənin bu sahə üzrə məsul şəxsləri təzliklə muxtar respublika ilə tanış olmaq niyyətlərini ifadə ediblər.

**"Şərq qapısı"**

## Qədim diyarımız İslam dünyasına tarixi, mədəniyyəti və dəyərləri ilə yeni töhfələr verəcək

***Müxtəlif dövrlərdəki qadağalara baxmayaraq, ölkəmizdə İslam mədəniyyəti ənənələri uzun illər qorunub saxlanıb və bu gün də həmin dəyərlər inkişaf etdirilir, gələcək nəsillərə çatdırılır. Qloballaşma dövründə Azərbaycan mədəniyyəti dünya mədəniyyətinə uğurla inteqrasiya olunsa da, müstəqil dövlətimiz həm də milli və mənəvi dəyərlərimizin qorunub saxlanılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirir. İslam ölkələri ilə qurulan mədəni əlaqələr də respublikamızın xarici siyasətinin mühüm prioritet istiqamətlərindən birini təşkil edir. Beş min il yaşı olan Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olması həm də bu siyasətin uğurlu nəticəsidir. Qədim şəhərin bu adı daşıması diyarımızın sosial-iqtisadi inkişafının, turizm potensialının tanıdılması ilə bərabər, milli və mənəvi dəyərlərimizin təbliğinə də şərait yaradır.***

Əlbəttə, İslam mədəniyyətinin paytaxtı statusunu qazanmaq üçün müəyyən şərtlər var. Bu ada namizəd olan şəhərin region və öz ölkəsi səviyyəsində zəngin tarixi olmalı, o, elm, incəsənət və ədəbiyyatın inkişafına xüsusi töhfələr verməli, həm İslam, həm də bütövlükdə, dünya mədəniyyətində yeri olmalıdır. Eyni zamanda bu ada layiq şəhərdə elmi və mədəni infrastruktur – elmi mərkəzlər, mədəni-kütləvi tədbirləri təşkil edən təsisatlar, mükəmməl təhsil qurumları fəaliyyət göstərməlidir. Həmçinin şəhərdə qədimliklə müasirliyin birləşərək vəhdət təşkil etməsi də əsas şərtlər sırasındadır. Qədim yurdumuz Naxçıvan tələb edilən bütün şərtlərə cavab verdiyindən bu ulu diyar İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Naxçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir, böyük sərvətimizdir".***

Həqiqətən də, Azərbaycanın bu ayrılmaz tərkib hissəsi həm qədimliyinə, həm mədəni zənginliyinə, həm də yerləşdiyi coğrafi mövqeyinə görə strateji əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən Naxçıvan hər zaman region ölkələrinin diqqət mərkəzində olmuşdur. İnsan cəmiyyətinin yenidən yaranış tarixini simvolizə edən Nuh Peyğəmbərin məzarüstü abidəsi, adı müqəddəs "Qurani-Kərim"də çəkilən Əshabi-Kəhf mağarası, əsrarəngiz Duzdağ mağaraları, Qərb renessansına meydan oxuyan Möminə xatın türbəsi məhz beş minillik bu şəhərin köksündə nəfəs alır. Bu siyahıya ulu əcdadlarımızın yaşam fəlsəfəsini özündə əks etdirən Gəmiqaya abidələrini, dünya arxeologiya elminə mühüm töhfələr vermək qüdrətində olan Qazma, Oğlanqala, Gilançay, Kültəpə arxeoloji abidələrini, saysız-hesabsız təbiət möcüzələrini, Naxçıvanın Azərbaycan və Şərq elminə necə böyük istedadlı şəxsiyyətlər verdiyini də əlavə etsək, dünya xəritəsində həcmcə çox kiçik bir ərazidə necə böyük bir potensialın toplandığının şahidi olarıq. Ancaq etiraf edək ki, müxtəlif tarixi dövrlərdəki ictimai-siyasi şərait Naxçıvanın öz qiymətini almasına imkan verməmişdir. Yalnız Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra, daha doğrusu, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra Naxçıvanın yenidən öyrənilməsinə, tədqiq olunmasına başlanılmışdır. Bu tarixiliklə bərabər, son illər ərzində qədim diyarımızda 300-dən artıq mədəniyyət və turizm obyekti inşa olunaraq və ya əsaslı təmir edilərək istifadəyə verilmişdir. Muxtar respublikada aparılan araşdırmalar zamanı 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. 500-dən çox mədəniyyət, incəsənət və turizm müəssisəsinin fəaliyyət göstərdiyi regionda insanların mədəni istirahətinin formalaşmasında mühüm rol oynayan onlarla müxtəlif profilli muzey də var. Çoxsaylı tarixi abidələrin bərpası, müxtəlif ərazilərdə arxeoloji tədqiqatların aparılması, regionun tarixi, mədəniyyəti, milli dəyərləri ilə bağlı müxtəlif ədəbiyyatların nəşri Naxçıvan haqqında zəngin məlumatları ortaya çıxarmaqla bərabər, ildən-ilə bura axışan turistlərin də sayının artmasında mühüm əhəmiyyət kəsb edir. ***"Mədəniyyəti inkişaf etdirmək milləti inkişaf etdirmək, xalqı sivilizasiyaya qovuşdurmaq, milli ruhu yaşatmaq deməkdir"*** fikrini öz fəaliyyətinin tərkib hissəsinə çevirmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvanın tarixi və mədəniyyətinin araşdırılması, öyrənilməsi və nəhayət, tanıdılması ilə bağlı həyata keçirdiyi tədbirlərin də əsas məqsədi bu potensialı üzə çıxarmaq, təbliğ etməkdən ibarətdir.

Onu da qeyd edək ki, İslam mədəniyyəti deyiləndə təkcə məscid və ibadət yerləri, dini ayinləri icra etmək başa düşülməməlidir. İslam mədəniyyəti insanın mənalı və faydalı ömür yaşamağı üçün həyat kodeksidir. Sevindirici haldır ki, xalqımızın ailə dəyərləri İslam mədəniyyətini özündə ehtiva edir, bu mədəniyyətin ali prinsipləri daim yaşadılır. Bu gün qədim türk dəyərləri ilə birgə İslam mədəniyyəti də ailə dəyərlərimizi formalaşdıran ən mühüm amillərdən biridir.

Qadına ehtiram İslam mədəniyyətinin tərkib hissəsi olduğu kimi, xalqımızın da ailə dəyərlərinin mərkəzində dayanır. Qədim oğuz elinin dəyərlərini özündə yaşadan və keçmişimizin salnaməsi olan "Kitabi-Dədə Qorqud" boylarında qadın-ana adı müqəddəs tutulub, "ana südü Vətən çiçəkləri ilə yaralı igid sağaldar" rəmzi mənası təsadüfən yaranmayıb. Ailə dəyərlərimizdə adət-ənənələr zəminində formalaşmış qadına münasibətin özünəməxsus xüsusiyyətləri vardır. İlk növbədə, ulu babalarımız "ana haqqı, Tanrı haqqı", – deyib, qadına-anaya hörmət və ehtiram göstəriblər. Hətta bəzi məqamlarda evin böyüyü olan atadan əvvəl anaya ehtiram göstərilir, oğul yurda, evə ayaq basanda əvvəlcə anasına təzim edib görüşür, sonra atasına yanaşır. Çünki qadın-ana ailənin qoruyucusu, ailə münasibətlərinin tənzimləyicisi hesab edilib. İslam mədəniyyəti də qadını cəmiyyətdən ayırmır, onun öz istedad və bacarığını insanlığa xidmət etməyə səsləyir. "Qurani-Kərim"də də qadının şəxsiyyəti uca tutulur. Qadının ailədə və cəmiyyətdə roluna yüksək qiymət verilir. Peyğəmbərimizin ən məşhur kəlamlarından biri "Cənnət anaların ayaqları altındadır" ifadəsidir.

Azərbaycan ailəsi və ailə dəyərlərimiz ən gözəl həyat məktəbidir. Valideynlər bu məktəbin şəfqətli və mehriban müəllimləri, uşaqlar isə öyrənməyə hazır şagirdləridir. Yeni nəslin düzgün tərbiyəsi hər bir xalqın gələcəyi üçün ehtiyac duyduğu məsələlərdəndir. Valideynlər bu cəhətdən məsuliyyət daşıyırlar. Azacıq diqqətsizlik, səhlənkarlıq və ya etinasızlıq onların dəyərli gələcəklərini məhv edib puça çıxara bilər. Bu mənada, necə deyərlər, valideynlərin övlada verdiyi ən böyük sərvət onları düzgün tərbiyə etmələridir.

Uşaqlar həyatın ilk çağlarında zəif və kövrək olduqlarına görə ailələrimizdə ehtirama layiq görülür, nəvaziş göstərilir. Sonrakı mərhələdə onlar ailə qayda-qanunlarını və iş üslubunu öyrətməklə böyüdülür. Ata-ana öz övladları arasında heç bir fərq qoymur, uşaqlar onların məhəbbət, nəvazişindən bərabər faydalanırlar. Ümumiyyətlə, ailələrimizdə uşağa qayğı əskik olmur. Hətta ailə qurub ev-eşik sahibi olsa belə, ata-ana diqqəti onun üzərində olur. Ailə dəyərlərimizə görə valideyn və övladların bir-birlərinə qayğıları qarşılıqlıdır. Valideyn övladın tərbiyəsində nə qədər məsuliyyət daşıyırsa, onların övladları da boya-başa çatanda valideynlərinə qayğı göstərməkdə məsuliyyətlidirlər. Valideynin vaxtilə öz valideynlərinə yaxşılıq etməsi övladları üçün son dərəcə təsirli bir ibrət dərsidir. Bütün bunlar həm də xalqımıza məxsus olan islami dəyərlərin tərkib hissəsidir.

Gözəl əxlaq, xoşxasiyyətlilik, xeyirxahlıq, nəciblik, yüksək insani keyfiyyətlərə malik olmaq bizlərin yaşadığı ömür zərrələridir. Ruhumuza hopmuş bu dəyərlər, əslində, bütün bəşəriyyətə çatdırılmalıdır. Ona görə ki, artıq Qərb cəmiyyətində birgə həyata əsaslanan vətəndaş nikahı üzərində qurulan ailə bəzən model kimi başqa xalqlara təqdim olunur. Lakin bu imitasiya nümunəvi ailə modeli ola bilməz. Bu, ənənəvi ailə dəyərlərinin tənəzzülü ilə bərabər, cəmiyyətin mədəni inkişaf səviyyəsini geri salmaqdan başqa bir şey deyildir. Buna görə də keçmişdən əmanət olaraq bizə gəlib çatan ailə dəyərlərimiz qorunub saxlanılmalı və lazımi şəkildə gələcək nəsillərə ötürülməlidir. Bu missiyanı yerinə yetirməkdə hər kəs gələcək nəsillər qarşısında məsuliyyət daşıyır. Ona görə də ailə dəyərlərimizi qoruyub gələcək nəsillərə çatdırmaq bu gün hər birimizin borcudur.

Bu il ölkəmizin paytaxtında "IV İslam Oyunları" keçiriləcək. Oyun mədəni mübarizə, rəqabətdir, gücünü sınamaq, istedadını göstərməkdir. Qalib olmaq, layiq olduğunu əldə etməkdir. Bu il həm də Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli Sərəncamı ilə ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Çünki İslam həm də həmrəylikdir. Həmrəylik isə özü bir mədəniyyətdir. Bunun da təməli ailədə qoyulur. Ailənin bütöv, möhkəm olması toplumda, cəmiyyətdə insanların həmrəy olmasına da zəmin yaradır. Tarixboyu ailələrimizin möhkəm, uzunömürlü olmasının ən başlıca səbəbi isə ailə dəyərlərimizə inam, sədaqət, vəfa və qarşılıqlı hörmətdən irəli gəlir.

Son illər ardıcıl olaraq ölkəmizdə mədəni və humanitar sahədə beynəlxalq forum və konfransların keçirilməsi, 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi belə deməyə əsas verir ki, bu gün Azərbaycan İslam mədəniyyətinin təbliğinə əsaslı töhfələrini verir. Qeyd etdiyimiz kimi, gələn il isə Naxçıvan İslam mədəniyyətinin paytaxtı missiyasını yerinə yetirəcəkdir. Burada bir incə məqam da ondan ibarətdir ki, keçiriləcək tədbir sırf mədəni xarakter daşısa da, Naxçıvanın beynəlxalq müstəvidə siyasi çəkisini də ortaya qoyacaq. Məlum olduğu kimi, tarixin müxtəlif dövrlərində qədim diyarımıza müxtəlif əsassız iddialar irəli sürülüb. Bu iddialar Naxçıvanın tarixinin, coğrafiyasının, mədəniyyətinin, ümumilikdə isə varlığının şübhə altına salınması məqsədi daşıyıb. Lakin indi Naxçıvan ötən əsrin əvvəlləri və sonunda böyük taleyin əsdirdiyi fırtınalarla üz-üzə qalan Naxçıvan deyil. Bu gün artıq Naxçıvanın dünyaya öz iddiaları var. Görülmüş və görüləcək işlər bu iddiaları daha açıq şəkildə ortaya qoyacaq. Tarixi ədalətsizlikdən doğaraq blokada vəziyyətinə salınması heç də bu qədim yurdun mədəni inkişafına mane ola bilməyib. Zəngin baza, dinamik inkişaf və mütərəqqi ideyaların formalaşdırıldığı qədim Azərbaycan diyarı Naxçıvan həm də öz dəyərləri ilə İslam mədəniyyətinə töhfə verəcək.

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

# “Bəhruz bəy Kəngərli taleyi” kitabının təqdimat mərasimi keçirilmişdir

***Aprelin 4-də Naxçıvan şəhərindəki Bəhruz Kəngərli Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə nəşr olunmuş “Bəhruz bəy Kəngərli taleyi” kitabının təqdimat mərasimi keçirilmişdir.***






Tədbiri Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva açaraq bildirmişdir ki, Naxçıvan çoxəsrlik tarixə malik olan qədim Azərbaycan torpağıdır. Bu əsrarəngiz diyarda tanınmış dövlət xadimləri, şairlər, görkəmli memarlar, fırça ustaları yetişmiş, mədəniyyət, incəsənət, o cümlədən təsviri sənət böyük inkişaf yolu keçmişdir. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında rəssamlığın və təsviri sənətin inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 2011-ci ildə Rəssamlar Birliyinin 40 illik yubileyi keçirilmiş, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yeni bina ilə təmin olunmuş, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən rəssamlar hər cür şəraiti olan emalatxanalarla təmin edilmiş, rəssamların albom-kataloqları nəşr olunmuş, öz fəaliyyəti ilə seçilən rəssamlar fəxri adlarla təltif edilmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası Sədrinin müavini Əli Həsənov təqdimat mərasimində çıxış edərək demişdir ki, Naxçıvan tarixi-mədəni abidələri ilə yanaşı, həm də ölkəmizə əvəzsiz xidmətlər göstərmiş görkəmli şəxsiyyətləri ilə də məşhurdur. Belə şəxsiyyətlərdən biri də Azərbaycan bədii sənət xəzinəsinə dəyərli töhfələr verən görkəmli rəssam Bəhruz Kəngərlidir. Bəhruz Kəngərli Azərbaycan təsviri incəsənət tarixində realist portret və mənzərə janrının əsasını qoymuş, rəssamlığa yeni ictimai məzmun gətirmiş, onu forma və təsvir vasitələri ilə zənginləşdirmişdir. Tiflisdə xüsusi rəssamlıq təhsili alan Bəhruz Kəngərlinin yaradıcılığı tamamilə milli ruhda və üslubda formalaşmış və o, milli rəssamlığın inkişafında mühüm rol oynamışdır. 30 il ömür sürən Bəhruz Kəngərli cəmi 7 il yaradıcılıq fəaliyyəti ilə məşğul olmuş, bu dövrdə məhsuldar işləyərək iki minə qədər əsər yaratmışdır.

Bildirmişdir ki, Bəhruz Kəngərli yaradıcılığı zəngindir. O, təkbaşına bütöv bir yaradıcı nəslin görə biləcəyi tarixi missiyanın öhdəsindən layiqincə gələrək vətənpərvərlik nümunəsi göstərmiş, erməni daşnaklarının törətdikləri vəhşiliklərə, xalqımızın başına gətirilən faciələrə biganə qalmamış, məşhur “Qaçqınlar” silsiləsini yaratmışdır. Onun bu silsiləyə daxil olan əsərləri böyük tarix dərsliyidir. O dərslik ki, ondan yaradıcı ziyalılarımız nəticə çıxarmalı və öyrənməlidirlər. Görkəmli rəssamın bənzəri olmayan yaradıcılıq məhsulu kimi “Naxçıvan yadigarı” albomu da xüsusi əhəmiyyətə malikdir. Həmin alboma baxaraq Naxçıvandakı tarix və memarlıq abidələrini əvvəlki görkəminə qaytarmaq, restavrasiya etmək mümkündür. Bəhruz Kəngərli realizminin ictimai həyatda və sənətdə yeri əvvəllər olduğu kimi, bu gün də aktualdır və gələcəkdə də aktual olaraq qalacaqdır. Bütün bu məziyyətlərinə görə Naxçıvanın tarixini yaşadan, realist təsviri sənətin əsasını qoyan, bədii sənət xəzinəmizə layiqli töhfələr verən Bəhruz Kəngərli əqidəli vətəndaş və yaradıcı ziyalı kimi Azərbaycan mədəniyyəti tarixində əbədi yaşamaq haqqı qazanmışdır.

Böyük sənətkarın həyatının və yaradıcılığının məhz bu baxımdan öyrənilməsi vacibliyinə diqqəti çəkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bəhruz Kəngərli şəxsiyyətini yalnız rəssam kimi deyil, həm də Azərbaycan xalqının görkəmli ziyalısı kimi dəyərləndirmək, tədqiq etmək, öyrənmək və öyrətmək lazımdır”.*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində görkəmli rəssamın həyat və yaradıcılığının öyrənilməsi, eləcə də təkrarolunmaz irsinin xalqımızın milli sərvəti kimi qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində tədbirlər hazırlanmış və icra olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında” 2001-ci il 15 fevral tarixli Sərəncamına əsasən Bəhruz Kəngərlinin Naxçıvan şəhərindəki məzarüstü abidəsi bərpa edilmiş, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 1972-ci ildən fəaliyyət göstərən sərgi salonuna rəssamın adı verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Bəhruz Kəngərli Muzeyinin yaradılması haqqında” 2001-ci il 22 may tarixli Sərəncamı ilə Bəhruz Kəngərli Muzeyi yaradılmış, rəssamın Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanan 200-ə yaxın əsərinin surəti çıxarılmış, həmçinin 50-dən çox rəsm əsəri əldə olunaraq muzeyə verilmişdir. Ali Məclis Sədrinin 2012-ci il 12 yanvar tarixli Sərəncamına əsasən muxtar respublikada görkəmli rəssamın yubileyi qeyd olunmuş, Bəhruz Kəngərli Muzeyi əsaslı şəkildə təmir edilmiş və ekspozisiyası zənginləşdirilmiş, poçt markaları buraxılmış, elmi konfrans keçirilmiş, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində “Sənətin Bəhruz zirvəsi” sənədli filmi hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 noyabr tarixli Sərəncamına əsasən isə Bəhruz Kəngərli adına Rəssamlar Parkı yaradılmış və burada Bəhruz Kəngərlinin abidəsi ucaldılmışdır. Muxtar respublika rəhbərinin tövsiyə və himayəsi ilə Bəhruz Kəngərli irsinin tədqiqi və təbliği sahəsində də tədbirlər görülmüş, böyük rəssamın yaradıcılığına həsr olunmuş müxtəlif nəşrlər, albom-kataloqlar hazırlanaraq çap edilmişdir.Hörmətli Ali Məclis Sədrinin sifarişi və himayəsi ilə çap olunan və bu gün təqdimat mərasimi keçirilən “Bəhruz bəy Kəngərli taleyi” kitabı da, hər şeydən əvvəl, böyük sənətkarla bağlı görülən işlərin məntiqi davamı kimi diqqəti cəlb edir. 512 səhifəlik bu fundamental nəşr böyük elmi əhəmiyyətə malikdir. O mənada ki, burada Bəhruz Kəngərlinin həyatı və yaradıcılığı ilə bağlı bir çox məsələlərə ilk dəfə olaraq aydınlıq gətirilmiş, bəzi tarixi faktlar dəqiqləşdirilmiş, Bəhruz Kəngərlinin yaşadığı dövrün yaradıcılıq mühiti də tədqiqata cəlb olunaraq ciddi elmi və tarixi nəticələr çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası Sədrinin müavini Naxçıvan Muxtar Respublikasının elmi və yaradıcılıq mühitində mühüm dəyərə malik olan qiymətli nəşrə görə Bəhruz Kəngərli yaradıcılığının böyük himayədarı, muxtar respublika Ali Məclisinin Sədri cənab Vasif Talıbov təqdimat mərasiminin iştirakçıları adından dərin minnətdarlığını bildirmişdir. Yüksək poliqrafik səviyyədə nəşr olunan “Bəhruz bəy Kəngərli taleyi” kitabının böyük zəhmətin və tədqiqatçı əməyinin məhsulu olduğunu diqqətə çatdıran Əli Həsənov bu kitabın ərsəyə gəlməsində əməyi olanların hamısına, eləcə də kitabın müəlliflərinə təşəkkürünü bildirmiş, Bəhruz Kəngərlinin 125 illik yubileyi, habelə yubileyə layiqli töhfə olan nəşr münasibətilə yaradıcı ziyalılarımızı təbrik etmişdir.

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, Xalq rəssamı Arif Hüseynov, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev, Naxçıvan Dövlət Universitetinin “Təsviri incəsənət” kafedrasının baş müəllimi Həbibə Allahverdiyeva çıxış edərək yeni nəşrin Azərbaycan mədəniyyətinə, rəssamlıq sənətinə böyük töhfə olduğunu bildirmişlər.

“Bəhruz bəy Kəngərli taleyi” kitabının müəllifləri – Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev və Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, sənətşünas Nizami Alıyev çıxış etmişlər. Müəlliflər bildirmişlər ki, Sovetlər Birliyi dövründə Bəhruz Kəngərli haqqında bir neçə kitab və monoqrafiya nəşr edilsə də, onlardakı səhvlərin bir-birini təkrar etməsi yeni bir tədqiqat əsərinin yaradılması vacibliyini ortaya qoymuşdur. Kitabda Bəhruz Kəngərlinin həyat və yaradıcılığı yenidən araşdırılmış, arxiv materialları toplanmış və təhlil edilmişdir. Əvvəlki tədqiqatlardan fərqli olaraq rəssamın həyatı haqqında yeni və maraqlı faktlar ortaya qoyulmuşdur. Kitabda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Bəhruz Kəngərli haqqında sərəncamları, görkəmli rəssamın yaradıcılığına həsr olunmuş rəsm əsərləri, heykəltəraşlıq nümunələrindən fotoşəkillər, bədii nümunələr, rəssam haqqında deyilmiş dəyərli fikirlər yer almışdır. Müəlliflər kitabın işıq üzü görməsində öz şəxsi dəstəyi və qayğısını əsirgəməyən, sənət adamlarının böyük hamisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlıqlarını bildirmişlər.

Sonra tədbir iştirakçıları Bəhruz Kəngərli Muzeyinə baxmışlar.

**“Şərq qapısı”**

---

*Gənc istedadlar*

# Göstərilən diqqət və qayğı gəncləri yeni-yeni uğurlar qazanmağa həvəsləndirir

***Azərbaycan gəncliyi ictimai həyatımızın bütün sferalarında öz fəaliyyəti ilə seçilir. İstedadlı, savadlı, bacarıqlı gənclər ölkəmizin inkişafına töhfələrini verir, bunu özlərinin vətəndaşlıq borcu sayırlar. Dövlətimiz də onlara hərtərəfli qayğı göstərir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu il yanvarın 14-də imzaladığı “Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında” Sərəncam yaradıcı gənclərə verilən yüksək qiymətin bariz nümunəsidir. Həmin sərəncama əsasən xüsusi istedadı olan Naxçıvan Musiqi Kollecinin tələbəsi balaban ifaçısı Sərxan Əliyevin və Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi şahmatçı Pərviz Qasımovun adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılıb və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüblər.

Mükafata layiq görülən gənclərdən biri olan Sərxan Əliyev ilk musiqi təhsilini Bəhruz Kəngərli adına Şərur Şəhər Uşaq İncəsənət Məktəbində alıb. Sərxanın dediklərindən:

– Qardaşım Orxan musiqi məktəbinin tar sinfində oxuyurdu. Mən də onunla hərdənbir məktəbə gedər, bir kənarda oturub qardaşımın ifasını dinləyərdim. Bir müddət sonra məndə də musiqiyə həvəs yarandı. Ancaq balaban deyil, qardaşım kimi tar ifaçısı olmağı düşünürdüm. Sonradan fikrimi dəyişərək balaban sinfində təhsil almağa başladım. İlk müəllimim Mübariz Əliyev olub. İlk vaxtlarda bəzi çətinliklərlə qarşılaşırdım. Heç vaxt öz ifamla razılaşmır, daha yaxşısını arzulayırdım. Lakin bilirdim ki, çalışmadan nəyəsə nail olmaq mümkün deyil. Bunu bildiyim üçün də bu sahəyə daha çox vaxt ayırmağa başladım. Artıq əziyyətimin bəhrəsini görür, bundan həvəslənir, səylərimi bir az da artırırdım. Bunun müqabilində də ilk uğurları qazandım. Belə ki, 2013-cü ildə ulu öndərimiz Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası uşaq musiqi və bədii sənətkarlıq məktəbləri şagirdlərinin müsabiqəsində üçüncü yerə, keçən il isə ümummilli liderimizin 93-cü ildönümü münasibətilə keçirilmiş müsabiqədə birinci yerə layiq görüldüm. Beş illik musiqi təhsili müddətində digər tədbirlərdə də iştirak edərək mükafatlandırılmışam. Hazırda təhsil aldığım Naxçıvan Musiqi Kollecinin xalq çalğı alətləri orkestrinin, “Dilruba”, “Buta” muğam ansambllarının, “Naxçıvanqala” ritm qrupunun üzvüyəm.



Yay aylarında solo konsert verməyi planlaşdırıram. Artıq bu istiqamətdə hazırlıqlara da başlamışıq. Konsertin yüksək səviyyədə təşkili üçün səylə çalışırıq.

Sərxan deyir ki, balaca qardaşını da bu sahəyə yönəltmək, ona da bu sənətin sirlərini öyrətmək arzusundadır. Çox istəyir ki, o da qardaşları kimi musiqiçi olsun.

Sonda isə Sərxan belə bir mükafata layiq görüldüyü üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlığını bildirdi.

Mükafata layiq görülənlərdən digəri – Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdi Pərviz Qasımov 7-8 yaşlarından şahmatla məşğul olur. Şahmatın ilkin sirlərini böyük qardaşından öyrənib:



– Mən də qardaşıma baxıb şahmatçı olmaq üçün ciddi çalışmağa başladım. Uğurlarımda qardaşımın da payı var. Baxmayaraq ki, hazırda o, bu sahədən tamamilə uzaqdır, lakin mən öz istəyimin ardınca getdim. Ailəmizin digər üzvləri də məni həmişə dəstəkləyirlər. Hətta bəzi yarışlarda iştirak etməyə tərəddüd etdiyim zamanlarda onlar məni cəsarətləndirir, uğur qazanacağıma inandırırlar.

Pərviz Qasımov 2014-cü ildə Yunanıstanda keçirilən məktəblilər arasında Avropa çempionatında ikinci yerə, elə həmin il İsmayıllıda keçirilən Azərbaycan şahmat olimpiadasında birinci yerə, Gürcüstanda keçirilən gənclər arasında Avropa çempionatında, Dubayda və Abu-Dabidə keçirilən yarışlarda üçüncü yerə layiq görülüb.

Hazırda XI sinifdə təhsil alan Pərviz II ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanlarına hazırlaşır. Bununla yanaşı, şahmatla da müntəzəm məşğul olur. Bunu asudə vaxtını səmərəli keçirmək üçün adi bir məşğuliyyət saymır, həyatının bundan sonrakı mərhələsində də ona gərək olacağını düşünür.

Pərviz deyir ki, qazandığı uğurların təməlində onlara göstərilən dövlət qayğısı durur. Buna görə də muxtar respublikada yeniyetmə və gənclər üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirir.

Biz də, öz növbəmizdə, Sərxan və Pərvizə fəaliyyətlərində uğurlar arzulayırıq. Yolunuz açıq olsun!

**Fatma BABAYEVA**

## Dədəmiz Qorqud demişdir:



*-Torpağın yurd, Vətən olması üçün iki şərt lazımdır: biri odur ki, torpağı gərək əkib-becərəsən, o birisi odur ki, torpağı gərək yağılardan qoruyasan. Əgər torpağı əkib-becərmədin, qorumağa dəyməz. Torpağı qoruya bilmədin, əkib-becərməyə dəyməz.*

* * *

*-Böyük, iti polad qılıncı çalmayınca döyüş bitməz.*

* * *

*-Savaşmadan-vuruşmadan igid doğmaz.*

* * *

*-İgidin atını at, oxunu ox keçməz.*

* * *

*-Atalar sözün tutmayan yabana atılar.*

* * *

*-Oğul igid mərdlik göstərər, elini, obasını xilas edər.*

* * *

*-Ana haqqı, Tanrı haqqı.*

* * *

*-Qardaşlı igidlər qalxar-qopar olar.*

* * *

*-El birliyi sel gücüdür, yıxar keçər, önündə duran olmaz.*

* * *

*-Haqq yandıran çırağın daim yansın!*

* * *

*-Ayıq başa, qoçaq ələ zaval gəlməz.*

* * *

*-Ağıllı oğul olsa, ocağının közüdür.*

***Düz bir il bundan əvvəl, aprel ayının ilk günlərində bütün gözlər cəbhəyə, Vətən övladlarının gecə-gündüz keşik çəkdiyi döyüş bölgələrinə dikilmişdi. Aprelin 1-dən 2-nə keçən gecə mənfur düşmən mövqelərimizə hücuma keçmişdi. Ordumuzun bu döyüşlərdə qazandığı şanlı zəfərdən sonra hər şey gün kimi aydın oldu, aprel savaşında qazanılan qələbə qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazıldı. Atəşkəsdən keçən əsrin dörddəbiri qədər zaman kəsiyindən sonra cəmi dörd gün ərzində gedən qanlı döyüşlərdə əldə etdiyimiz qələbə xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Silahlı Qüvvələrimiz düşmənə və onun havadarlarına onların anlayacaqları tərzdə başa saldı ki, bu xalq heç bir zaman işğala dözməyəcək, heç bir güc qarşısında boyun əyməyəcək, gec-tez ata-baba əmanəti olan torpaqları azad edəcəkdir.***

# Torpaq, uğrunda ölən varsa, Vətəndir

Həmin dövrdə torpaqlarımızın azadlığı, dövlətimizin bütövlüyü, müstəqilliyi uğrunda düşmən qarşısında canlarını sipər edərək şəhidlik zirvəsinə ucalan əsgərimizin qəhrəmanlığı isə dillərə dastan oldu. Xalq öz qəlbində bu qəhrəmanlara möhtəşəm bir abidə ucaltdı, onların hər biri ölməzlik, əbədiyyət qazandı. Bu döyüşlərdə Naxçıvan torpağı da iki şəhid verdi. Mayor Rasim Məmmədov və leytenant Qabil Orucəliyev aprel döyüşlərində şücaət və rəşadət nümayiş etdirərək şəhidlik zirvəsinə yüksəldilər. Bəli, qədim Naxçıvanın igid övladları ana Vətənin hər qarışının onlar üçün əziz və müqəddəs olduğunu bir daha sübuta yetirdilər.

...Naxçıvan şəhərinin İslam Səfərli küçəsində bir şəhid ocağı var. Bu məkan aprel döyüşlərində mərdliklə vuruşan və şəhidlik məqamına yüksələn Qabil Orucəliyevin ata ocağıdır. Bu gün bu ocaqda daha bir Vətən övladı olan Qabil böyüyür. Eynilə atası kimi iri qonur gözləri, qara qalın qaşları olan balaca Qabil. Hələ dil açıb danışmasa da, ata ocağının divarlarında asılan qəhrəmanın şəkillərinə hey baxır, baxır. Yatmaq vaxtı gələndə, ya da nənəsi, bibiləri onu şəhərə gəzintiyə apararanda asta yerişlərlə gəlib atasının şəkli qarşısında durur, onunla gözləriylə sağollaşıb uzaqlaşır. Onun uşaq dünyasında atası şəkillərdə yaşayır, elə bu şəkildən əl uzadıb onun gecə kimi qara, məxmər saçlarını tumarlayır, öpüb-qoxlayıb bağrına basır. Vaxt, zaman axıb keçəcək, bu oğul da böyüyüb atası kimi qorxmaz bir qəhrəman olacaq, artıq hər şeyi başa düşəndə onun sual dolu baxışlarına da cavab tapılacaq. O zaman balaca Qabilə deyəcəklər ki, atan üzərində yaşadığın bu torpaqlar üçün, Vətəni üçün, xalqı üçün, sənin və sənin kimi minlərlə balanın parlaq gələcəyi



üçün canını qurban verdi, ölümün soyuq baxışları onu üşütmədi, əksinə, onun üzərinə yürüdü, düşmənin arzularını gözündə qoydu. Zaman gələcək, balaca Qabil də böyüyüb əsgər, zabit olacaq, igidlərin sırasında öz yerini alacaq. Ancaq hələlik o, anasının, nənəsinin, yaxınlarının əhatəsində qayğısız böyüyür. Başı üzərində mərmilər uçuşmur, güllə səsləri eşidilmir. Ölkəmizin sərhədlərində keşik çəkən onun atası kimi oğullar düşməni çox uzun bir müddətə susmağa məcbur ediblər.

...İgid və qorxmaz Vətən oğlu Qabil Orucəliyev 1991-ci ildə anadan olub, şəhərdəki 1 nömrəli tam orta məktəbi bitirib. Atasını erkən yaşlarında itirən, iki bacı və bir qardaşın sevimlisi olan Qabil 2006-cı ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olub, 3 il sonra bu təhsil ocağını yüksək qiymətlərlə başa vurub. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsilini başa çatdırıb. 2013-cü ildə leytenant rütbəsi alan qəhrəman döyüş bölgəsindəki hərbi hissələrdən birində motoatıcı bölüyün taqım komandiri vəzifəsində hərbi xidmətini davam etdirib. Şəhidlik məqamına ucaldığı zaman Tərtər rayonunun Borsunlu kəndi yaxınlığında yerləşən məntəqədə olub. Bu məntəqəyə Milli Qəhrəman Mübariz İbrahimovun şərəfinə “Qisas postu” adı verilmişdi. Məhz bu postdan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov düşmən üzərinə yürüşü başlatmış, bu postu bütün Azərbaycanda, hətta düşmən ölkədə tanıtmışdı. Qabil üçün də başlanan bir yol var idi və o, özü də bilirdi ki, nə zamansa çıxdığı bu yol onu şəhidlik zirvəsinə ucaldacaq.

Şəhid anası Nuriyyə Orucəliyevanın dedikləri: Qabil mənə oğul, qardaş, həm də sirdaş əvəzi olub. Bəlkə də, atasını erkən itirməsi səbəbindən idi ki, bütün ailənin yükünü öz üzərinə götürmüşdü. Ətrafındakılara qarşı çox mehriban idi. Bu səbəbdən də onu tanıyan insanlar Qabilin dünyadan getməsi ilə barışa bilmirdilər. Onların təsəllisi Qabilin şəhidlik zirvəsinə ucalması idi. Ona görə dəfn mərasimində övladımı son mənzilə yola salmağa gələn insanların qarşısında başımı dik tutdum. Yoldaşları bir ağızdan deyirdilər ki, ağlama ana, biz də Qabilik! Və elə onda bir yox, yüzlərlə övladımın olduğunu anladım. Qabilin bir balaca qardaşı da var. Atası dünyadan köçəndən sonra dünyaya gəlib, Qabili öz atası bilib. O, 11 yaşındadı. Dəfn mərasimində bayrağı ona təhvil verdilər. Oğlum İsa “Vətən sağ olsun!” – dedi və şəhidimin son örtüyünü, üçrəngli bayrağımızı başı üzərinə qaldırdı. Hə, oğul, Qabilin tabutunu çiynimdə daşıdım, göz yaşlarımı ürəyimə axıtdım. İstəmədim ki, şəhid anasını ağlayan görsünlər, sabah biz də şəhid olsaq, anamız beləcə ağlayacaq, – desinlər. Yenicə dünyaya gələn, üzünü görmədiyi oğluna Qabilin dəfnindən bir neçə gün sonra onun adını qoyduq.

Nuriyyə xanım onu da dedi ki, şəhid ailəsi olaraq hər zaman dövlətimizin diqqət və qayğısını öz üzərində hiss edir: “Ötən ilin may ayında Ali Məclisin Sədri tərəfindən hər cür şəraitə malik yeni mənzillə təmin olunduq. Orada cənab Sədrimizin *“Şəhid ailələri Vətən uğrunda canlarını qurban verən igid oğullarının itkisini ailələrinin faciəsi kimi deyil, xalqın qəhrəmanlıq nümunəsi kimi qarşıladılar”,* – deməsi, şəhid ailələrinin daim dövlətimizin himayəsi altında yaşayacağını bildirməsi məni bir şəhid anası kimi kövrəltdi. Elə oğlum Qabildə də bu arxayınlıq var idi. Bilirdi ki, başına bir iş gəlsə, dövlətimiz ailəsini köməksiz qoymayacaq, nə lazımdırsa, edəcək. Hə, bala, Qabilim düşmən önünə bizdən əmin-arxayın getdi.

…Hadisə şahidlərinin dediyinə görə, düşmənə qarşı əks-hücumda Qabil və onun yoldaşları “Qisas postu”ndan 15-16 kilometr məsafədə düşmənin dərinliyinədək irəliləyiblər. Erməni postunu tutduqdan və oradakı erməniləri zərərsizləşdirdikdən sonra o, irəlidə olan postu da ermənilərdən təmizləmək üçün yoldaşları ilə məsləhətləşib. Bundan sonra Qabil hücum istiqamətlərini müəyyən edib və döyüş yoldaşları ilə birgə irəli gedib. Döyüş yoldaşlarının dediyinə görə, Qabil və yoldaşları Madagiz kəndində mühasirəyə düşüblər, ancaq uzaq məsafədə olduqlarından onlara kömək gələndə gec olub. Qabil və 2 yoldaşı – Cavid Dədəkişiyev və Adil Adilzadə son mərmilərinədək düşmənlə vuruşub və qəhrəmancasına şəhid olublar. Döyüş zamanı Qabil və yoldaşları çox sayda düşmən zabit və əsgərini zərərsizləşdiriblər. Həmin dövrdə Milli Qəhrəmanımız Mübariz İbrahimovdan sonra erməni mətbuatının ən çox Qabildən bəhs etməsi onu göstərirdi ki, o, düşmənə sarsıdıcı zərbələr vurub. Döyüş zamanı göstərdiyi qəhrəmanlığa görə Qabil Orucəliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 19 aprel 2016-cı il tarixli əmri ilə “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli döş nişanı ilə təltif edilib.

Bəli, Qabil öz igidliyi ilə ondan sonra gələnlər üçün bir örnək, ölkəmizin hər bir gənci üçün qürur, fəxarət simvoluna çevrildi. Ötən il aprel ayının 10-da beynəlxalq təşkilatların vasitəçiliyi ilə şəhidimizin nəşi ermənilərdən alındı. Onun cənazəsi Bakıdan Naxçıvana gətirildi. Şəhidi qarşılamaq üçün yüzlərlə insan hava limanına axın etmişdi. Sonu görünməyən avtomobil karvanının müşayiəti ilə şəhidin nəşi ata ocağına aparıldı, sonra isə qəhrəmanımız böyük izdiham əhatəsində dəfn edildi. Mərasimdə iştirak edənlərin böyük bir hissəsi gənclər idi. Onların baxışlarından duymaq çətin deyildi ki, gənclik heç bir zaman şəhidlərini, haqq uğrunda mübarizəmizi, bizə dədə-baba əmanəti olan torpaqlarımızın azadlığı yolunda tökülən qanları unutmayacaq, nəyin bahasına olursa-olsun, son damla qanına qədər vuruşacaq və qalib gələcək. Gec-tez üçrəngli bayrağımız müqəddəs Vətən torpaqlarının hər qarışına öz kölgəsini salacaq.

...Qabil Orucəliyev yaxşı bilirdi ki, o, döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə apardı. Bu baxımdan şəhidimizin döyüş yolu bütün gənclər üçün örnəkdir, nümunədir. Bu gün biz fəxrlə deyə bilərik ki, Vətən üçün şəhidliyi könüllü qəbul edən, bununla fəxr edən gənclərimiz var. Qabil Orucəliyev kimi qəhrəmanlar yetirən xalq heç vaxt məğlub ola bilməz. Bu gənclərin qəhrəmanlığı xalqımızın həyatında, yeni nəslin düşüncə tərzində yaranan mühüm hadisədir. Bu gün şəhidin ocağını ziyarət edən gənclər bu ocağa müqəddəs ziyarətgah kimi baxır, Qabilin məzarı önündə müqəddəs torpaqlarımızı azad etməyə hazır olduqlarına and içirlər. Sabah həmin gəncləri məğlubedilməzlik ruhu ilə səngərlərdə görəcəyimizə əminik. Bu ruhu, bu Vətən məhəbbətini, Vətənçün ölməyə hazır olmaq şövqünü yaradan Qabil kimi qəhrəman övladlarımıza ulu Tanrıdan rəhmət diləyirik...

✍ **Səbuhi HÜSEYNOV**


ŞƏRQ qapısı

Baş redaktor müavini: RAUF KƏNGƏRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 273